*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*10 (2) 2023*
https://doi.org/ 10.46868/atdd.2023.
*Araştırma Makalesi | Research Article*
*Geliş tarihi |Received : 30.07.2022*
*Kabul tarihi |Accepted: 05.09.2022*
*Yayın tarihi |Published : 10.11.2023*

**Mehman Süleymanov**

https://orcid.org/0000 0002 7139 9624
*Doctor of History. Leading researcher of the Institute of History named after A.A. Bakikhanov of the National Academy of Sciences of Azerbaijan, smehman@mail.ru*

*Atıf Künyesi | Citation Info*

Süleymanov, M. (2023). 1920-ci ilin Aprel İşğalı Dövründə Azərbaycanın və Sovet Rusiyasının Hərbi Gücünün Nisbəti. *Akademik Tarih ve Düşünce Dergisi, Türkiye-Azerbaycan İlişkilerinin 100. Yılı Özel Sayısı,* 10 (2), 620-633.

# 1920-ci ilin Aprel İşğalı Dövründə Azərbaycanın və Sovet Rusiyasının Hərbi Gücünün Nisbəti

**Xülasə**

1920-ci il aprel ayının 27-də bolşevik Rusiyasının XI ordusu sürətli bir hücumla Azərbaycan ərazilərini işğal etdi və Azərbaycan Xalq Cümhuriyyəti süqut etdi. Bu işğalın qısa bir zamanda baş verməsinin hərbi səbəbi bu məqalədə təhlil edilmişdir. Bir sıra tədqiqatçıları bu gün də düşündürən belə bir sual mövcuddur: Nə üçün Azərbaycan əraziləri Rusiyanın XI ordusu tərəfinən çox böyük sürətlə işğal edildi? Azərbaycan Xalq Cümhuriyyəti bu işğalın qarşısının alınması üçün yetərli hərbi müqavimət gücünə malik idi, ya yox? Nə üçün kifayət qədər gücə maik olan Azərbaycan Ordusu bu işğalın qarşısını ala bilmədi? Həmin suala cavab tapılması üçün Azərbaycan Xalq Cümhuriyyətinin hərbi gücü, aprel işğalı ərəfəsində Azərbaycanın hərbi qüvvələrinin vəziyyəti və fəaliyyəti bu məqalədə konkret faktlar əsasında araşdırılmışdır. Məqalədə Azərbaycan Ordusunun təşkili və aprel işğalı ərəfəsində ölkənin şimal sərhədlərinin mühafizəsində dayanan milli hərbi qüvvələrin say tərkibi, habelə Azərbaycanın işğalına cəlb edilmiş bolşevik qüvvələrinin say tərkibi, bu qüvvələrin təchizat imkanları və bütünlükdə tərəflərin qüvvələri nisbəti tədqiq edilmişdir.

**Açar sözlər**: müstəqillik, ordu, hərbi güc, sərhəd mühafizəsi, XI Qırmızı Ordu, işğal

# The Ratio of the Military Power of Azerbaijan and Soviet Russia during the April Occupation Period of 1920

**Abstract**

*On April 27, 1920, the XI army of Bolshevik Russia invaded the territories of Azerbaijan with a swift attack and the Azerbaijan People's Republic fell. The military reason why this invasion took place in a short time is analyzed in this article. A number of researchers are still thinking about such a question: Why were the territories of Azerbaijan occupied by the XI army of Russia so quickly? Did the Azerbaijan Democratic Republic have enough military resistance to prevent this invasion or not? Why could the Azerbaijani Army, which has enough power, not prevent this invasion? In order to find an answer to that question, the military strength of the Azerbaijan Democratic Republic, the situation and activity of the military forces of Azerbaijan on the eve of the April invasion were examined in this article based on concrete facts. In the article, the composition of the national military forces guarding the northern borders of the country on the eve of the organization of the Azerbaijan Army and the April invasion, as well as the composition of the Bolshevik forces involved in the occupation of Azerbaijan, the supply capabilities of these forces and the ratio of the forces of the parties as a whole were studied.*

***Keywords**: independence, army, military power, border guard, XI Red Army, occupation*

## Giriş

Azərbaycan Xalq Cümhuriyyətinin mövcudluğu dövründə dövlət quruculuğu sahəsində əldə edilmiş çox ciddi nailiyyətlərdən biri də milli ordunun yaradılması, onun təşkilatlatlandırılması və bu ordunun lazımi döyüş keyfiyyətləri əldə etməsi idi. Müstəqilliyin elə ilk dövründə Müsəlman Korpusu Əlahiddə Azərbaycan Korpusu adlandırıldı, ölkənin müdafiəsinə və Cümhuriyyət ordusunun təşkilatlandırılmasına kömək göstərilməsi üçün Osmanlı Türkiyəsinə müraciət edildi və Azərbaycanın köməyinə gəlmiş türk hərbi qüvvələri ilə milli hərbi qüvvlərin bazasında Qafqaz İslam Ordusu yaradıldı. Bundan əlavə, ölkə ərazisində hərbi vəziyyət elan edildi, hərbi çağırışa başlandı, ilk milli hərbi məktəbin fəaliyyəti canlandırıldı (Azerbaydjanskaya Demokratiçeckaya Respublika (1918-1920); Birinci dünya harbinde Türk harbi Kafkas cebhesi 3ncü ordu harekatı; Azerbaycan Respublikasının Dövlet Arşivi, fond 2918, siyahı 1, iş 1, v.45). Məlumdur ki, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsində və Azərbaycan xalqının bolşevik-daşnak qırğınlarndan xilas edilməsində Qafqaz İslam Ordusunun tarixi xidmətləri vardır. Amma Birinci Dünya Müharibəsinin nəticələrinə görə türk hərbi qüvvələri Azərbaycanı tərk etməli olanda ordu quruculuğu bütünlüklə Azərbaycan hökumətinin üzərində qaldı.

Ordu quruculuğunun uğurla aparılması üçün Azərbaycan hökumətinin konkret siyasət hazırladı və həmin siyasətin icra olunması üçün hökumət tərəfindən lazım olan tədbirlər müəyyənləşdirildi və həyata keçirildi. Nazirlər Şurasının sədri və 1918-ci il noyabr ayının 1-dən həmin ilin dekabr ayının 25-nə qədər hərbi nazir vəzifəsini öz üzərinə götürmüş Fətəli xan Xoyski özünün parlamentdəki çıxışlarından birində bəyan edirdi ki, ordunun yaradılması hökumətin qarşısında dayanan əsas vəzifələrdən biridir və bununla bağlı konkret addımlar atılmaqdadır. Bu istiqamətdə görülən mühüm tədbirlərdən biri kimi, F.Xoyski ordunun təşkili işlərinin tam artilleriya generalı Səməd bəy Mehmandarova tapşırılmasını xatırladırdı. Hökumətin sədri onu da xatırladırdı ki, ordunun yaradılması uzun sürən bir prosesdir və bunun üşün hökumət zəruri olan maliyyəni əsirgəməyəcəkdir (Azerbaycan Halk Cümhuriyyeti (1918-1920). Azərbaycan parlamentinin 20 dekabr 1918-ci iltarixli iclasında çıxış edərkən Fətəli xan Xoyski Azərbaycan Ordusunun qarşısında dayayna əsas vəzifənin məhz ölkənin təcavüzdən qorunması olduğunu bəyan edirdi: “Azərbaycan hökuməti nə keçmişdə, nə də indi ixtilaflı məsələləri silah gücü ilə həll etmək arzusunda olmamışdır. Hərgah belə məsələnin həlli üçün silaha sarəlmaq lazım gəlmiş isə də biz özümüz deyil, bizi məcbur etmişlər. Lazımi təqdirdə silaha sarılsaq hamı bunu bilir ki, bizi belə vəsiləyə əl uzatmağa məcbur ediblər. Hökumət tərəfindən ərz edirəm ki, mümkün qədər zərərsiz, qansız, sülh ilə hər bir məsələni xitama yetişməsinə çalışmaq, hökumət şimdi də belə müamilədə bulunacaqdır. Əks təqdirdə, hökumət özü öz gücü ilə, qüvvəsilə Azərbaycan hökumətini hər bir təcavüzdən mühafizə edəcəkdir” (Azerbaycan Halk Cümhuriyyeti (1918-1920).

**1.Azərbaycan Xalq Cümhuriyyəti ordusunun təşkili və onun say tərkibi**

Fətəli xan Xoyskinin qeyd etdiyi kimi, ordunun təşkili işinin çar Rusiyası ordusu sıralarında zəngin xidmət yolu keçmiş Səməd bəy Mehmandarova tapşırılması bu prosesin uğurla aparılması üçün hökumət tərəfindən atılmış ciddi addımlardan biri idi. Hərbi nazirin müavini vəzifəsinə təyinat almış general Əliağa Şıxlinski də ordu quruculuğu sahəsində zəngin təcrübəyə malik idilər. Cümhuriyyət ordusunun bu rəhbərlərinin və onların öz ətrafına topladığı yüksək rütbəli milli zabit kadrlarının fədakar xidmətlərinin Azərbaycan hökumətinin və xal-qının qayğısı ilə əhatə olunması çox tezliklə öz nəticələrini verməyə başladı. Qısa müddət ərzində Cümhuriyyətin yüksək döyüş keyfiyyətlərinə malik olan ordusunu formalaşdırmaq mümkün oldu. Ordu quruculuğunun daha ahəngdar şəkildə aparıldığı 1919-cu ilin sonlarına Cümhuriyyət ordusunun tərkibində iki piyada diviziyasının tərkibində birləşmiş olan 1-ci Cavanşir, 2-ci Zaqatala, 3-cü Gəncə, 4-cü Quba, 5-ci Bakı, 6-cı Göyçay piyada alayları, 7-ci Şirvan və 8-ci Ağdaş piyada alayları, süvari diviziyasında birləşmiş olan 1-ci Tatar, 2-ci Qarabağ və 3-cü Şəki süvari alayları, iki topçu briqadası, 3 zirehli qatarı, zirehli avtomobillər

taqımı, topçu və istehkam bölmələri və digər xidmət strukturları mövcud idi (Azerbaycan Respublikası Dövlet Arşivi (AR DA), fond 2894, siyahı 6, iş 14, v.1-2; Azerbaycan Halk Cümhuriyyetinin Ensiklopediyası, 2004, s.176; Darabadi, 2013). Bu, son hədd deyildi. Çünki Hərbi Nazirlik 1919-cu ilin sonunda Cümhuriyyət Ordusunun şəxsi heyətinin ümumi sayını 20 minə çatdırmaq istəyirdisə, 1920-ci ilin sonuna isə bu rəqəmin 40 minə çatdırılacağı planlaşdırılırdı (ARDA, f. 2894, siy. 1, iş 13, v. 129; Şüküroğlu, 2018, s. 155). Amma 1920-ci ilin əvvəlindən başlayaraq Azərbaycanın daxilində və ətrafında hərbi-siyasi vəziyyətin xeyli mürəkkəbləşməsi, həmin ilin aprel ayında isə bolşevik işğalının baş verməsi ordu quruculuğunun ahəngdar şəkildə davam etməsinə mane oldu. Buna görə də ordunun tərkibinin genişləndirilməsi ilə bağlı qarşıya qoyulan vəzifənin icrasına nail olunmadı.

Hazırda elmi-tarixi ədəbiyyatda Azərbaycan Xalq Cümhuriyyəti ordusunun say tərkibi haqqında müxtəlif rəqəmlərə rast gəlmək mümkündür. Azərbaycan Xalq Cümhuriyyətinin say tərkibi ilə bağlı göstərilən rəqəmlərdən birində bu ordunun 50 min nəfərdən ibarət olduğu bildirilir. Bu rəqəm 1920-ci ilin yanvar ayında Paris Sülh Konfransı çərçivəsində aparılan müzakirələr zamanı Azərbaycan nümayəndə heyətinin üzvü Məmməd Məhərrəmov tərəfindən səsləndirilmişdir.Müttəfiq dövlətlərin nümayəndələrin ilə aparılan müzakirələr zamanı M.Məhərrəmov bildirirdi ki, bizim Azərbaycanın milli zabitlərinin rəhbərliyi altında 50 min nəfərlik intizamlı ordumuz var. O sonra da əlavə edirdi ki, bu ordudan yalnız 10-12 min nəfəri silahla təchiz olunmuşdur. M.Məhərrəmov müttəfiq dövlətlərin nümayəndələrinin nəzərinə onu da çatdırırdı ki, Azərbaycan parlamenti çağırış haqqında qanun qəbul edib və bu qanuna əsasən orduya 100 min nəfərə qədər adam səfərbər etmək mümkündür (İzvleçenie iz protokola zasedaniya qlav deleqasiy SŞA, Velokobritanii, Fransii, İtalii i Yaponii na Parijskoy mirnoy konferensii ot 19 yanvarya 1920; Parijskiy arxiv. 1919-1940. V çetıryox kniqax. Kniqa pervaya. 1919-1921; Sostaviteli, Mamuliya & Abutalıbov, 2016, s. 339-348). Yuxarıda qeyd edildiyi kimi, Cümhuriyyətin Hərbi Nazirliyi tarixi proseslərin normal cərəyan edəcəyi halda 1920-ci ilin sonuna 40 nəfərlik bir ordunu formalaşdırmağı nəzərdə tuturdu. Belə olan halda 1920-ci ilin yanvarında Azərbaycanda 50 min nəfərlik bir ordunun olması həqiqətdən uzaqdır. Ola bilməzdi ki, Parisə yollannış olan Azərbaycan nümayəndə heyətinin üzvlərinin bundan xəbərsiz olsun. Çox güman ki, müttəfiq dövlətlərin diqqətini cəlb etmək, onlarda Azərbaycanın istiqlaliyyətinin qorunmasına bir maraq yaratmaq üçün belə bir rəqəm müzakirələrə çıxarılımışdı. 1920-ci ildə Cümhuriyyət ordusunun sıralarının genişlənməsi silah və sursata olan ehtiyacı da təbii olaraq artırmalı idi. Amma 1920-ci ilin yanvarında Cümhuriyyəti ordusunda yalnız 10-12 min əsgərin tüfəngə malik olması haqqında M.Məhərrəmovun dediyi də şübhə doğurur. Məsələn, Cümhuriyyət ordusunun arxiv sənədlərindən məlumdur ki, 1919-

cu ilin sonlarında orduda olan ingilis tüfənglərinin sayı 14 min idi (Steklov, 1928, s. 63). Hərbi hissələrin silahla təchizat səviyyəsinə gəldikdə isə 1919-cu il sentyabr ayının sonlarında 1-ci Cavanşir piyada alayının 1703 əsgərinə 1015 rus tüfəngi, 2-ci Zaqatala alayının 1342 əsgərinə 1190 rus tüfəngi, 3-cü Gəncə piyada alayının 1218 əsgərinə 1573 tüfəngi var idi. Süvari alaylarında isə şəxsi heyətin tüfənglə təchizatı 60-65 faiz arasında idi (AR DA, f.2898, siy.2, iş 2,v. 100, 172). Bəzi tədqiqatçılar Cümhuriyyət ordusunun say tərkibinin 40 min nəfər olduğunu iddia edirlər (İsgəndərov, 2018). Sonra isə əlavə olunur ki, bu sayda olan ordunun 30 mini piyada qüvvələri və 10 mini də süvari qüvvələri idi. Cümhuriyyət ordusunun sayının 40 min olmasını şübhə altına alan yuxarıdakı fikri burada da təkrar etmək olar. Bundan başqa Cümhuriyyət ordusunun həm piyada qüvvələrinin, həm də süvari qüvvələrinin ştat sayı haqqında aşağıda toxunulacaq faktlar da aprel işğalı ərəfəsində Cümhuriyyətin 30 min piyada və 10 min də süvari qüvvələrinə malik olmasının doğruluğunu əsaslı şəkildə şübhə altına ala bilər.

Elmi-tarixi ədəbiyyatda daha çox Cümhuriyyət ordusunun 30 min nəfərdən ibarət olamsı haqqında fikirlər söylənməkdədir. Bu rəqəmə həm Cümhuriyyət ordusunun alay komandiri olmuş polkovnik İsrafil bəy İsrafilovun xatirələrində, həm XI Qırmızı ordunun kəşfiyyat məlumatlarında, həm də elmi-tarixi ədəbiyyatda rast gəlmək mümkündür (https://525.az/site/?name=xeber&duzelis=0&news_id=95214#gsc.tab=0).

Cümhuriyyət ordusunun say tərkibi ilə bağlı iddia olunan bu rəqəmin doğruluğunu qəbul etmək də mümkün deyildir. Cümhuriyət ordusunun alay komandiri İsrafil bəy İsrafilovun göstərdiyi rəqəmin dəqiqləşdirilməsi ilə bağlı mətbuatda artıq fikir söylənilmişdir (Süleymanov, 2018). İsrafil bəy bu rəqəmi heç bir mənbəyə istinad etmədən göstərmişdir. Digər tərəfdən o öz xatirələrində mövcud olan 8 piyada alayından əlavə 3 xüsusi piyada alayının, habelə 3-cü topçu briqadasının mövcudluğu haqqında fikir söyləmişdir ki, bu fikirlər Cümhuriyyət ordusunun arxivi ilə təsdiqlənmir. XI Ordunun kəşfiyyat məlumatlarında isə bildirilirdi ki, ümumi sayı 30 min nəfər olan Cümhuriyyət ordusu 12 min nəfərlik bir piyada diviziyasından (həmin məlumatda diviziyanın tərkibinə daxil olan alayların adları doğru göstərilməyib), 2 min nəfərlir süvari briqadasından, 8 min nəfərlik partizan dəstələrindən, 2 min nəfərlik polisdən, 300 nəfərlik parlament mühafisə dəstəsindən, 500 nəfərlik hərbi məktəbdən və s.-dən ibarət idi. Kəşfiyyat məlumatlarında o da bildirilirdi ki, 1920-ci ilin aprel işğalı ərəfəsində Cümhuriyyət Ordusunun 20 min nəfəri Ermənistan cəbhəsində fəaliyyət göstərirdi. Bununla qeyd olunurdu ki, XI Orduunun müdaxiləsinə Cümhuriyyətin 10 min nəfərlik bir qüvvəsi müqavimət göstərə bilər.

Mənbələrdə və dövrün şahidlərinin xatirələrində Cümhuriyyət ordusunun say tərkibi barəsində başqa rəqəmlıərlə də rastlaşmaq mümkündür. Məsələn, M.Ə.Rəsulzadə “Azərbaycan

Cümhuriyyəti" əsərində Cümhuriyyət ordusunun sayının 17 min nəfər oluğunu (Resulzade, 1990, s. 55). "Əsrimizin Səyavuşu" əsərində isə 25 min nəfər olduğunu göstərmişdir (Resulzade, 1997, s. 42). Nuru paşanın fikirncə, Cümhuriyyət ordusunun şəxsi heyəti 20 min nəfər idi (Budak, 2013). Qafqazda yerləşən Fransa hərbi missiyasının əldə etdiyi məlumata görə isə, 1920-ci il aprel ayının 1-nə Cümhuriyyət ordusunun say tərkibi 25 min nəfərdən ibarət idi. Bu missiyanın məlumatında doğru olaraq bildirilirdi ki, Cümhuriyyət ordusu iki piyada diviziyasından və dörd eskadronlu üç süvari alayından ibarətdir (Topçıbaşi Alimardan bek. V çetıryox kniqax. Kniqa pervaya. 1919-1921; Sostaviteli, Mamuliya & RAbutalıbov, 2016). Cümhuriyyət ordusunun elmi-tarixi dövriyyəyə çıxarılmış arxivində onun şəxsi heyətinin dəqiq sayı haqqında məlumat mövcud deyildir. Lakin bu ordunun strukturlarının və onlarının ştat cədvəllərinin təhlili yuxarıda göstərilən rəqəmlərin həqiqətə daha yaxın olduğunu söyləməyə əsas verir. Beləki, Cümhuriyyət ordusunun piyada alaylarının ştata görə şəxsi heyəti təxminən 2800 nəfər olmalı idi (alayların ştatında kiçik fərqlər var idi). Süvari alaylarının ştatı isə 744 nəfərdən ibarət idi. Əlavə olaraq şəxsi heyət tutumlu olan kürd piyada taborunun ştatı 1225 nəfər, kürd atlı divizionunun ştatı isə 450 nəfər idi. Topçu briqadalarının ştat sayı isə 900 nəfər ətrafında idi. Bütün digər strukturlar da nəzərə alınsa, Cümhuriyyət ordusunun ümumi ştat sayı təxminən 25 min nəfər ətrafında olduğunu söyləmək mümkündür (xidmət strukturlarının ştat sayı haqqında məlumatlar mövcud deyil). Amma nəzərə almaq lazımdır ki, Cümhuriyyət ordusunun mövcud olan sənədlərində hərbi hissələrin və bölmələrin tam şəkildə komplektləşdirildiyini görmək mümkün deyildir. Məsələn, 1-ci Cavanşir piyada alayının mövcudu 1919-cu ilin avqustunda 2435 nəfər, sentyabrında isə 1703 nəfər, 2-ci Zaqatala alayının mövcudu 1919-cu ilin avqustunda 1851 nəfər, sentyabrında isə 1342 nəfər olmuşdu. 1919-cu ili avqustunda 1-ciu Tatar süvari alayının mövcudu 645 nəfər, 2-ci Qarabağ süvari alayının mövcudu 568 nəfər, 3-cü Şəki süvari alayının mövcudu isə 568 nəfər olmuşdu (Süleymanov, 2020). Bütün bunları nəzərə almaqla bolşevik işğalı ərəfəsində Cümhuriyyət ordusunun xidmət sahələri də daxil olmaqla bütün mövcudunun 20-25 nəfər arasında olduğunu qəbul etmək olar. Qarabağda döyüşlər başa çatdırıldıqdan sonra bu bölgədə yerləşən 6 piyada alayının hamısının birlikdə cəmi 2 min nəfər şəxsi heyətinin , bir süvari alayının isə cəmi 200 nəfərlik şəxsi heyətinin qaldığını bildirirdi (AR DA, f.2894, siy. 2, iş 5, v. 59). Doğrudur, burada iki piyada alayı və iki süvari alayı haqqında məlumat yoxdur. Onların da əsas qüvvələri Qazax-Ağstafa istiqamətində yerləşmişdi. Sözsüz ki, həmin alaylar da itkilərə məruz qalmışdı. Yəni bu məlumatlar da həm Cümhuriyyət ordusunun ümumi sayının 1920-ci ilin aprel işğalı ərəfəsində 20-25 mindən çox olmadığı və həm də bolşevik işğalına qarşı müqavimət üçün

Cümhuriyyət hökumətinin sərəncamında yetərli sayda hərbi qüvvənin qalmadığı qənaətinə gəlməyə imkan verir.

Yuxarıda söylənilənlərin nəzərə alınması heç də bolşevik işğalına qədər Cümhuriyyət ordusunun say tərkibinin daha böyük rəqəmə çatdırılmaması heç də ordu quruculuğu istiqamətində Cümhuriyyət hökumətinin fəaliyyətini və xidmətlərini şühbhə altına almamalıdır. Qeyd edildiyi kimi, Azərbaycanda çağırış ehtiyatları mövcud idi. Lakin ordunun sayının artırılması yalnız gənclərin çağırışa cəlb edilməsi ilə tamamlanmır. Hərbi Nazirliyin rəhbərliyinin izlədiyi siyasətə əsasən, əlavə kontingent o vaxt cəl edilməli idi ki, həmin kontingenti silahla, sursatla, hərbi infrastruktura ilə, bu kontingentin təlim-tərbiyəsi ilə məşğul olacaq zabit kadrlarla təmin etmək mümkün olsun. Cümhuriyyət ordusunun tərkibinin genişləndirilməsiilə bağlı belə bir siyasətin izləndiyini Fransanın Qafqazda yerləşən hərbi missiyasının məlumatıda təsdiq edirdi (A.M. Topçubşi, a.g.e, s.121). Həmin məsələlərin həllinə isə müəyən vaxt lazım idi. Məhz bunu nəzərə alaraq Hərbi nazirliyin rəhbərliyi 1920-ci ilin sonuna yuxarıda toxunulan məsələləri həlli ilə ordunun sayının 40 min nəfərə çatdırılmasını planlaşdırırı.

**2.1920-ci ilin aprel işğalının hərbi aspektləri**

1920-ci ilin aprel işğalının mahiyyətinin və obyektiv mənzərəsinin tam şəkildə yaradılması sözsüz ki, bu problemin hərbi-siyasi aspektlərini vəhdətdə və tam şəkildə araşdırılması ilə mümkündür. Problemin siyasi aspekti haqqında bolşevik Rusiyasının lideri Vladimir Leninin bu teleqramı müəyyəm təsəvvürlərin yaradılmasına kömək edə bilər. O, Qafqaz cəbhəsi Hərbi İnqilab Şurasının üzvü S.Orconikidzeyə göndərdiyi teleqramda belə bir tələb irəli sürürdü: Bakını almaq bizim üçün çox və çox zəruridir. Bütün səylərinizi buna yönəldin. Özü də bəyanatlarınızda mütləq yalnız diplomatik olun (İnternasionalnaya pomoş XI armii v borbe za pobedu Sovetskoy vlasti v Azerbaydjane, 1987). Yəni bolşevik Rusiyasının rəhbəri birmənalı və qətiyyətli şəkildə tələb edirdi ki, Bakı şəhəri işğal edilməlidir. Çünki Rusiyanın gələcək taleyi Bakı neftindən asılı idi. Bunu V. Leninin sonrakı çıxışlarında da görmək mümkündür. Bakı şəhəri işğal edildikdən sonra V. Lenin bildirirdi ki, Bakı şəhəri alındıqdan sonra Sovet Rusiyasının vəziyyəti yaxşılaşacaqdır. O əlavə edirdi ki, indi bizin sənayemiz yanacaqsız qalmışdır, Bakı nefti isə bu sənayeni canlandıracaqdır (İnternasionalnaya pomoş XI armii v borbe za pobedu Sovetskoy vlasti v Azerbaydjane, 1987). Belə bir vəzifənin, yəni Bakının işğal edilməsi üçün güclü bir qrupıaşma yaradıldı. Bu qruplaşmanın əsasını Qafqaz Cəbhəsinin XI Ordusu təşkil edirdi. Onun zərbə qüvvəsinin artırlması üçün isə tərkibinə əlavə qüvvələr də verilmişdi. XI ordunun tərkibində olan38-ci və 39-cu piyada diviziyaları ləğv edilərək 20-ci piyada diviziyasının komplektləşdirilməsinə istiqamətləndirildi. XI Orduya aid

olan 28-ci diviziya isə I briqadanın və 34-ci piyada diviziyasının süvari alayı hesabına komplektləşdirildi.50-ci Taman diviziyasının I korpusunun şəxsi heyəti də 28-ci atıcı diviziyaya verildi. Bu dəyişikliklədən sonra Azərbaycanınm işğal edilməsinə aşağıdakı qüvvələrə vəzifələndirildilər: 20-ci, 28-ci və 32-ci piyada diviziyaları, 1-ci və 7-ci süvari diviziyaları, Taman süvari briqadası və Kurışkonun komandir olduğu briqada. Sonradan Kurışkonun briqadasının bazasında 18-ci süvari diviziyası yaradıldı. XI orduya "III İnternasional", "Timofey Ulyansev", "Qırmızı Dağıstan", "Qırmızı Həştərxan", "Stepan Razin", "Kransoarmeyets" zerhli qatarları da verilmişdi. Volqa-Xəzər donanması da XI Ordunun əməliyyat tabeliyinə verilmişdi. Bütünlükdə Azərbaycanın işğal edilməsinə 72472 nəfərlik bir ordu vəzifələndirilmişdi (Krasnoznamyennıy Zakavkazskiy, 1969, s. 19; Traskunov, 1961, s. 214-215; Katibli, 1964, s. 63). Bolşevik Rusiyasə Azərbaycan sərhədinə sadəcə böyük sayda qoşun toplamamışdı. Həm bu bu böyük sayda qoşunun icra edə biləcyi xüsusi əməliyyat planı hazırlamış və hər bir hissəyə, birləşməyə bu əməliyyat planında xüsusi vəziffələr müəyyənləşdirilmişdi: sürətli hücum, Cümhuriyyət qüvvələrinin müdafiəsinin güclü zərbə ilə yarılması, cinah zərbələri, Volqa-Xəzər donanması hərbi gəmilərinin top atəşləri ilə hücumun himayə edilməsi, Cümhuriyyətin müdafiə qüvələrinin əhatələnməsi və onların geri çəkilmə yollarının bağlanması və s. (XI Ordunun emeliyyat planı ilə bağlı bax: İz prikaza voyskami XI armii o nastuplenii na Baku i osvobojdenii Azerbaydjana, s. 21, İnternasionalnaya pomoş XI armii v borbe za pobedu Sovetskoy vlasti v Azerbaydjane, 1987, s. 20-24; Tokarjevskiy, 1957, s. 268-271). XI Ordu komandanının Bakının işğal edilməsi üçün imzaladığı əmrdəki məlumata görə, Qusar-Quba-Xudat rayonlarında 5 min nəfərlik müdafiə qüvvəsi və jandarm divizionu var idi.Ancaq bu məlumat doğru deyil. Bunu, əslində, bolşevik mənbələri də təsdiq edirlər. Məsələn, XI Ordunun zirehli qatarlar qrupunun komandiri M.Q.Yefremovun şəxsən apardığı kəşfiyyatdan sonra Samur çayı üzərindəki körpü ətrafında 300 nəfərlik qüvvə yerləşdiyini bildirirdi (Vospominaniya Efremova Mixaila Qriqoryeviça. Siyasi Sənədlər Arxivi, Fond.276, siyahı 23, iş 204, vərəq 5-28). Cümhuriyyət Ordusunun arxiv sənədlərinə görə isə 1920-ci il aprel ayının 25-də respublikanın şimalındakı Cümhuriyyət hərbi qüvvələri 4-cü Quba alayının polkovniki knyaz Tumanovun rəhbərliyi altında 4 piyada bölüyündən, dağ batareyasından və bir zirehli qatardan ibarət idi. Piyada bölüklərindən biri Yalamada, biri Şirvanda, 2 bölük və bir batareya isə Xudatda dayanırdı. Zirehli qatarla dəstənin qərargahı da Xaçmazda yerləşdirilmişdi (AR DA, f. 2896, siy.1, iş 7, v. 284). Bunlardan başqa, şimal bölgəsində bir jandarm bölməsi də var idi və bu bölmə də sərhədin müdafiəsinə cəlb edilməli idi. Şahidlərin verdiyi məlumata görə, bu bölmə Yalama stansiyası yaxınlığındakı

meşənin içərisində yerləşmişdi (Mikoyan, 1971, s. 569). Çox güman ki, M.Yefremovun haqqında danışdığı qüvvə həmin bu bölmə idi.

Aprel işğalı ərəfəsində Cümhuriyyətin şimal sərhədlərini qoruyan hərbi qüvvələr bunlardan ibarət idi. Bolşevik mənbələrinə əsasən aparılan araşdırmalrdan birində göstərilir ki, XI Ordunun qüvvələri aprel ayının 27-də Quba və Qusar rayonları ərazisində Cümhuriyyətin hərbi qüvvələrini təşkil edən 31 zabiti və 600 əsgəri əsir götürmüşdülər (Tokarjevskiy, 1957, s. 271). Bu rəqəmə əsasən belə bir qənaətə gəlmək mümkündür ki, aprel işğalı ərəfəsində Cümhuriyyətin şimal sərhədinin müfahizəsində təxminən 700 nəfərlik bir hərbi qüvvə mövcud idi. Bu qüvvələrdən Azərbaycanın sərhədlərini qoruyarkən şəhid olanlar var idi, zirehli qatar və onun şəxsi heyəti isə şox böyük sayda olan düşmənə müqavimət göstərməyin mümkün olmayacağını görəndə döyüş bölgəsindən uzaqlaşa bilmişdi. Sərhəd bölgəsində mövcud olan Cümhuriyyət qüvvələri isə nəyin bahasına olursa-olsun Bakını işğal etmək tapşırığı almış 72,5 min nəfərlik təchiz olunmuş bir qoşunun qarşısını saxlamağa yetərli deyildi.

Cümhuriyyətin hərbi qüvvələrinin əsası isə Qarabağ bölgəsində və Ermənistanla sərhəd boyunca yerləşdirilmişdi ki, Ermənistanın 1920-ci il mart ayının 22-dən etibarən Azərbaycana qarşı başlanmış kütləvi təcavüzünün qarşısını alsın. Cümhuriyyətin hərbi qüvvələrinin əsasını Ermənistan cəbhəsində olmasını Rusiya ordusunun Qafqaz dairəsinin komandanlığı da bilirdi. Məsələn, Rusiya Ordusu Qafqaz Cəbhəsinin komandanı Tuxaçevskinin və bu Cəbhənin Hərbi İnqilab Şurasının üzvü S.Orconikidzenin XI Ordu komandanına və Volqa-Xəzər Donanmasının komandanına Bakının işğalı ilə bağlı göndərdikləri 490 nömrəli, 21 aprel 1920-ci il tarixli direktivdə göstərilirdi ki, Azərbaycanın əsas qüvvələri öz ölkələrinin qərb sərhədi boyunca yerləşiblər. Cəbhə komandanlığı bu durumu Azərbaycanın işğalı üçün əlverişli durum kimi dəyərləndirir və aprel ayının 27-də işğala başlanmasını əmr edirdi (Direktivı komandovaniya XI armii i Voljcko-Kaspiyskoy Flotilii o nastuplenii na Baku i osvobojdenii Azerbaydjana, 1920, s. 310, Direktivı komandovaniya frontov Krasnoy Armii (1917-1920), 1974, s. 310). XI Ordu komandanının Bakının və Azərbaycanın işğalı ilə bağlı 52 nömrəli, 25 aprel 1920-ci il tarixli əmrində də Azərbaycanın əsas hərbi qüvvələrinin Ermənistan cəbhəsində olması və bunun da işğal üçün əlverişli şərait yaratdığı bildirilirdi (İz prikaza voyskami XI armii o nastuplenii na Baku i osvobojdenii Azerbaydjana, s. 21; İnternasionalnaya pomoş XI armii v borbe za pobedu Sovetskoy vlasti v Azerbaydjane, 1987, s. 20-24). Aprel işğalı ərəfəsində Qarabağın dağlıq hissəsində və Qazax-Tovuz istiqamətində hərbi şərait əsaslı şəkildə Cümhuriyyətin hərbi qüvvələrinin nəzarəti altına götürülsə də erməni təcavüzünü yenidən alovlanması istisna edilmirdi. Ona görə də burada yerləşən hərbi qüvvələrin şimal sərhədinə atılması və bununla Qarabağ cəbhəsinin zəifldədilməsi mümkünsüz sayılırdı. 1920-ci il aprel

ayının 27-də bolşevik qoşunlarının Azərbaycan sərhədlərini keçməsi xəbəri alınanda da hərbi nazir Səməd bəy Mehmandarov Cümhuriyyət Ordusunun 1-ci piyada diviziyasının komandiri general-mayor Cavad bəy Şıxlinskiyə teleqram göndərərək bir piyada taboru Gəncədən, bir piyada taboru isə Qazaxdan şimal sərhədinə göndərilməsi barəsində əmr vermişdi. Bunun üçün teleqramda Gəncəyə yük qatarının göndərildiyi və həmin taborların da ayın 28-də Bakıya çatmasının zəruriliyi ifadə olunmuşdu (Nezirli, 1997, s. 111-112). Mövcud olan faktlar və sənədlər belə bir qənaətə gəlməyə əsas verir ki, Ermənistanın Azərbaycana qarşı təcavüzünün 1920-ci ilin aprel işğalı ərəfəsində başlaması həm də erməni millətçi dairələri ilə bolşevik Rusiyasının rəhbərliyi arasında əldə edilmiş sövdələşmənin nəticəsi idi. Bu məsələ ilə bağlı erməni millətçilərinin nümayəndələri Rusiyaya yollanmış və bolşevik hökumətinin nümyəndərləi ilə bu ermənilərə Azərbaycan ərazilərinin güzəşt edilməsi qarşılığında Cümhuriyyət ordusunun diqqətinin Ermənistan cəbhəsinə cəlb edilməsinə razı olduqlarını bildirmişdilər (Nesibli, 2011, s. 271; Hesenli. 2009, s. 489; 2004, s. 41). 1920-ci il iyun ayının 9-da Qarabağ erməniləri adından Tiflis erməniləri S.Pirumov və Armais Erqinkyans V.Leninə göndərdikləri məktubda onun nəzərinə çatdırırdılar ki, ermənilər müsavat ordusunun əsas qüvvələrinin Qarabağa cəmləşdiirlməsi və bununla da XI Ordu tərəfindən Azərbaycanın işğalına şərait yaradılması üçün əllərindən gələni etmişdilər. Məktubdan aydın olur ki, sol sosialist və kommunist qrupları da erməni-daşnak qoşunlarına qoşulmuş, müsavat qoşunlarına qarşı göstərilən müqavimətin vaxtını uzatmağa çalışmış və gördükləri işlər barədə vaxtaşırı sovet qoşunlarının Şimalı Qafqazda yerləşən qərargahına məlumat çatdırmışdılar. Məktub müəllifləri onu da bildirirdilər ki, erməni təcavüzünün qarşısı alınsa da erməni millətçi dairələri Cümhuriyyət qüvvələrinin demək olar ki, bütünlüklə ölkənin qərbinə göndərilməsinə və bununla da XI Ordunun hərəkət yolunun müqavimətdən təmizlənməsinə nail olmuşdular (Siyasi Senedlər Arşivi, Kopiya fondu, iş 409, v. 1-5). Bir sıra tədqiqatçıların fikrincə, XI Ordunun Azərbaycanı işğal etmək planının qarşısının alınması yollarından biri körpülərin partladılması və bununla da bolşevik qüvvələrinin irəliləməsinin dayandırılması ola bilərdi. O da bildirilir ki, hərbi nazir S.Mehmandarov xəstə olduğu üçün onun müavini general Əliağa Şıxlinski belə bir əmr vermişdi (İsgenderli, 2011, s. 200; Nesibzadə, 1990, s. 70). Burada sözsüz ki, söhbət Samur çayı üzərindəki körpüdən gedir. Amma bolşevik Rusiyasının Azərbaycan Xalq Cümhuriyyətini işğal etmək siyasəti o dərəcədə sadə bir siyasət deyildi ki, bir körpünün partladılması ilə onun qarşısını almaq mümkün olsun. İrəli sürülən bu fikirlə bağlı aydınlaşdıılmalı olan bir sıra məqamlar var. Qeyd edilməlidir ki, 1920-ci il aprel ayının 8-də imzaladığı əmrlər hərbi nazir S.Mehmandarov səhhəti ilə əlaqədar tərxis olunması haqqında Azərbaycan hökumətinə raportla müraciət etdiyini və həmin gündən etibarən hərbi nazir

vəzifəsinin icrasının nazir müavini Ə.Şıxlinskiyə həvalə olunduğunu bildirirdi. Doğrudan da təxminən iki həftə S.Mehmandarov xidmətdən kənarda oldu və yalnız 1920-ci il aprel ayının 24-də öz vəzifəsinin icrasına geri döndüyünü bildirdi (Sbornik prikazov po Voennomu Vedomstvu Azerbaydjanskoy Demokratiçeskoy Respubliki, 2018). Yəni S. Mehmandarov xəstəliyinə görə bir müddət xidmətdən kənarda olsa da, aprel işğalı ərəfəsində yenidən xidmətə qayıtmışdı. Ona görə də hərbi nazirin əvəzinə onun müavininin belə bir əmr verməsi mümkün deyildi. Ə.Şıxlinski də elə bir insan deyildi ki, onun bolşevizmə rəğbət göstərməsi və bu rəğbətə görə də onun bolşevik qoşunlarının işğalını asanlaşdıracaq bir əmr vermiş olsun. Ə.Şıxlinskinin bolşevizmə qarşı barışmaz mövqedə olmasını bolşevizmin Azərbaycandakı silahdaşları da çox təkidlə təsdiq edirdilər (Şüküroğlu, 2018, s. 346-347). Cümhuriyyətin Hərbi Nazirliyinin hazırda elmi dövriyyədə olan arxivində də bolşevik işğalınını qarşısının alınması üçün Samur körpüsüün partladılması barəsində hər hansı bir məlumatla rastlaşmaq mümükn deyildir. Heç 1919-cu ilin yayında Azərbaycana qarşı Denikin qoşunlarının basqın təhlükəsi kifayət qədər real olanda belə bu təhlükədən müdafiə olunmaq üçün Azərbaycan hökumətinin də, Hərbi Nazirliyin rəhbərliyinin də əsas diqqəti Samur körpüsünün partladılmasına deyil, sərhəd xətindən Bakıya qədər eşelonlaşdırılmış müdafiə sisteminin yaradılmasına yönəldilmişdi. Faktların təhlili həm də onu göstərir ki, bolşevin təhlükəsi nə qədər ciddi olsa belə aprel ayının 27-bə keçən gecə XI Ordunun sərhəd xəttini keçəcəyi gözlənilmirdi. Bunu XI Ordu komandanlarının xatirələrində, habelə elə Azərbaycan parlamentinin fəaliyyətində də görmək mümkün deyil. Belə ki, XI Ordunun sərhəd xəttini keçdiyi gün, yəni 1920-ci il aprel ayının 26-da Azərbaycan parlamenti bir sıra digər məsələlərlə bağlı “Şuşa şəhərində hərbi feldşer məktəbi açmaq haqqında” qanun da qəbul etmişdi (Vospominaniya Efremova Mixaila Qriqoryeviça. Bax: Siyasi Sənədlər Arxivi, F.276, siy. 23, iş 204, v. 5-28; Azerbaycan Halk Cümhuriyyeti (1918-1920). Parlament, 1998, s. 970). Bolşevik işğalının yaxında olunduğu bilinsəydi, yəqin ki belə bir hərbi qanunun qəbuluna da artıq ehtiyac görünməzdi.

Samur körpüsü partladılmasa da Azərbaycan ərazisində, Xaçmaz stansiyası yaxınlığında dəmir yolu körpüsü dağıdılmış, dəmir yolu sökülmüşdü. Amma XI Ordunun təmir qüvvələri tez bir zamanda körpünü və yolu bərpa etdilər və XI Ordunun sürətlə irəliləməsini təmin etdilər. Bundan başqa XI Ordu komandanlığının əmrinə əsasən, bu Ordunun zirehli qatarları geri çəkilməkdə olan Cümhuriyyət zirehli qatarını çox yaxından təqib etdilər və bununla da dəmir yolu xəttinin sökülməsi üçün imkan yaranmasının qarşısını aldılar (Krasnoznamennyy Za¬kavkazskiy, 1969; Darabadi, 2013).

**Nəticə**

Beləliklə, aparılan təhlillərdən belə bir nəticəyə gəlmək olur ki, Azərbaycan Xalq Cümhuriyyəti hökuməti 1918-ci il may ayının 28-də elan edilmiş müstəqilliyin qorunub saxlanması üçün mövcud olan daxili və xarici imkanlardan səmərəli şəkildə istifadə etməyə çalışmışdır. Lakin tarixi şəraitin əlverişsizliyi, dünya miqyasında cərəyan edən dinamik hərbi-siyasi proseslər Azərbaycanın müstəqilliyinin qorunması istiqamətində çox ciddi təhdidləri ortaya çıxardı. Xüsusilə, bolşevik Rusiyasının nəyin bahasına olursa-olsun Azərbaycanı işğal etmək və onun təbii sərvətlərinə sahib olmaq üçün izlədiyi təcavüzkar siyasət və bu təcavüzkarlığın qarşısının alınması üçün dünyanın böyük dövlətləri tərəfindən təsirli addımların atılmaması Azərbaycanı çox ağır sınaqlarla üzbəüz qoydu. Cümhuriyyətin ordu quruculuğu sahəsində uğurlu nəticələr əldə edilsə də, qısa müddət ərzində bolşevik Rusiyasının müqayisəyə gəlməz dərəcədə üstün olan hərbi gücünün qarşısının alınması üçün yetərli qüvvənin formalaşdırılması mümkün olmadığı üçün bolşevik Rusiyası da bu güc üstünlüyündən istifadə etdi və Azərbaycanın müstəqilliyinə son qoydu.

## Kaynaklar

*Azerbaycan Halk Cümhuriyeəti (1918-1920).* (1998). *Parlament.* C.1. Azerbaycan.

*Aeərbaycan Halk Cümhuriyyeti (1918-1920).* (1998). *Parlament.* C. 2. Azerbaycan.

*Azerbaycan Halk Cümhuriyyetinin Ensiklopediyası*. (2004). C. 1, Lider.

*Azerbaycan Respublikası Devlet Arşivi* (AR DA), fond 2894, siyahı 6, iş 14, v.1-2;

*Azerbaycan Respublikası Devlet Arşivi,* fond 2918, siyahı 1, iş 1, v.45

*Azeerbaycan Respublikası Devlet Arşivi*, f. 2894, siy. 1, iş 13, v. 129;

*Azerbaycan Respublikası Devlet Aşxivi*, f.2894, siy. 2, iş 5, v. 59

*Azerbaycan Respublikası Devlet Arşivi*, f. 2896, siy.1, iş 7, v. 284

Azerbaydzhanskaya Demokraticheskaya Respublika (1918-1920). (1998)ç (Armiya). Azerbaydzhan.

Azizbekoba, P., Mnasakanyan, A., Traskunov, M. (1969). *Sovetskaya Rossiya v borba za ustanovleniye i uproçeniye vlasti sovetov v Zakavkazye*. Azerneşr.

*Birinci dünya harbinde türk harbi Kafkas cebhesi 3ncü ordu harekatı.* (1995). C. 2. Genelkurmay basım evi.

Darabadi, P. (2013). *Voenno-politiçeskaya istoriya Azerbaydjana (1917-1920*). İzd. Dom Kavkaz.

*Direktivı komandovaniya XI armii i Voljcko-Kaspiyskoy Flotilii o nastuplenii na Baku i osvobojdenii Azerbaydjana.* 490, 21 aprelya 1920, 310,

*Direktivı komandovaniya frontov Krasnoq Armii (1917-1920).* (1974). *Voinizdat,* 310.

Həsənli, C. (2009). *Azərbaycan Xalq Cümhuriyyətinin Xarici Siyasəti (1918-1920).* Garisma Mmc.

*İnternasionalnaya pomoş XI armii v borbe za pobedu Sovetskoy vlasti v Azerbaydjane*. (1987). Azerbaydjanskoe Qos. İzdatelstvo.

İsgəndərov, A. (2018). Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və onun tariximizdə yeri, *Strateji təhlil, 1-2* (23-24), 13-36.

İsgenderli, A. (2011). *Realities of Azerbaijan 1917-1920.* Xlibris corporation,

İz prikaza voyskami XI armii o nastuplenii na Baku i osvobojdenii Azerbaydjana, *İnternasionalnaya pomoş XI armii v borbe za pobedu Sovetskoy vlasti v Azerbaydjane*. Azerbaydjanskoe Qos. İzdatelstvo, Baku, 1987, s. 20-24

İzvleçenie iz protokola zasedaniya qlav deleqasiy SŞA, Velokobritanii, Fransii, İtalii i Yaponii na Parijskoy mirnoy konferensii ot 19 yanvarya 1920 q.,

*A.M.Topçibaşi. Parijskiy arxiv. 1919-1940. V çetıryox kniqax. Kniqa pervaya. 1919-1921*. Hudojestvennaya literatura, Moskva, 2016, s. 339-348

Kadişşev A. (1960). *İntervensiya i qrajdanskaya voyna v Zakavkazye*. Moskva.

Katibli, M. M. (1964). *Çingiz İldırım*. Azərnəşr.

Krasnoznamyennıy Zakavkazskiy. (1969). Voinizdat.

Mikoyan, A. (1971). *Doroqoy borbı. Kniqa pervaya*. İzdatelstvo politiçeskoy literaturı.

Meeting of Allied Representatives, Paris, January 19-th 1920, 420.

Azərbaycan Xalq Cümhuriyyəti. Böyük Britaniyanı arxiv sənədləri. (2008). Çaşıoğlu.

Mustafa, B. (2013). Nuru paşanın Qafqaz İslam Ordusu haqqında raport, *Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam Ordusu*. Nurlar.

Nəsibli, N. (2011). *Azərbaycan Demokratik Respublikasının xarici siyasəti*. Ay-Ulduz.

Nəsibzadə, N. (1990). *Azərbaycan Demokratik Respublikası*. Elm.

Nəzirli, Ş. (1997). *Tam artilleriya generalı Səməd bəy Mehmandarov*. Hərbi nəşriyyat.

Protokol zasedaniya predstaviteley ministerstv inostrannıx del Anqlii, Fransii i İtalii ot 15 yanvarya 1920 q.

Sluşaniye deleqatov Azerbaydjana i Qruzii, *A.M.Topçibaşi. Parijskiy arxiv. 1919-1940. V çetıryox kniqax.*

*Kniqa pervaya. 1919-1921*. Hudojestvennaya literatura, Moskva, 2016, s. 323-336

Rəsulzadə, M.Ə. (1990). *Azərbaycan Cümhuriyyəti*. Elm.

Rəsulzadə, M.Ə. (1997). *Əsrimizin Səyavuşu. Şağdaş Azərbaycan ədəbiyyatı. Çağdaş Azərbaycan tarixi*. Gənclik.

Sbornik prikazov po Voennomu Vedomstvu Azerbaydjanskoy Demokratiçeskoy Respubliki. (2018). Sostavitel Atamalı Şaxbazov. Maarif.

Siyasi Sənədlər Arxivi, Kopiya fondu, iş 409, v. 1-

Steklov, A. *Armiya musavatskoqo Azerbaydjana*. (1928). AzQİZ.

Şüküroğlu, L. (2018). *Azərbaycan Xalq Cümhuriyəyti dövründə ordu quruculuğu*. Elm və Təhsil.

Süleymanov, M. Polkovnik İsrafil bəyin "Azərbaycan ordusu haqda xatirələr"inə sözardı.525-ci qazet, 06.03.2018 https://525.az/site/?name=xeber&news_id=95812#gsc.tab=0

Tokarjevskiy, E.A. (1957). *İz istorii inostrannoy intervensii voynı v Azerbaydjana*. Azerneşr.

Topçubaşi, A.M. (2016). *Parizhskiy arkhiv 1919-1940. V çetıryox kniqax. Kniqa pervaya. 1919-1921*. Hudojestvennaya literatura.

Traskunov, M.B. (1961). *Kavkazskaya Krasnoznamyonnaya*. Zarya Vostoka.

Vospominaniya Efremova Mixaila Qriqoryeviça. Siyasi Sənədlər Arxivi, F.276, siy. 23, iş 204, v. 5-28

https://525.az/site/?name=xeber&duzelis=0&news_id=95214#gsc.tab=0